Ümumtəhsil məktəblərində fəaliyyət göstərən sinif rəhbərlərinin işinin müasir tələblərə uyğun təşkili, yeni təlim-tərbiyə metodlarının ümumtəhsil məktəblərində tətbiqinin səmərəliliyini artırmaq məqsədilə

**ƏMR EDİRƏM:**

1. **Sinif rəhbəri haqqında əsasnamə** təsdiq edilsin (əlavə olunur ).

2. Naxçıvan MR Təhsil naziri, Bakı şəhəri üzrə Təhsil İdarəsinin, Gəncə şəhər Təhsil İdarəsinin, şəhər, rayon təhsil şöbələrinin müdirləri sinif rəhbərlərinin fəaliyyətlərinin bu əsasnaməyə uyğun qurulmasını təmin etsinlər.

3. Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsi (A.İbrahimov),Şəhər və Kənd rayonları üzrə ümumi təhsil şöbələri (A.Muradov və A.Əhmədov) əmrin icrası ilə bağlı məktəb rəhbərlərinə əməli köməklik göstərsinlər.

4. Ümumi şöbə (İ.Mirzəyev) əmrin çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini E.Qasımova həvalə olunsun.

***Misir Mərdanov***
***Təhsil naziri***

***05 mart 2009-ci il tarixli,***

***əmr № 270***